"SINAM" Məhdud Məsuliyyətli

Cəmiyyətin direktoru

cənab Əbülfət Rəhmanova

Dövlət Mülki Aviasiya Administrasiyası "FARABI" (BTMMN)

layihəsi çərçivəsində tətbiq olunan "SERP" proqram təminatına dair

RƏY MƏKTUBU

Dövlət Mülki Aviasiya Administrasiyasında "FARABI" layihəsi olan SERP proqramı ("Müəssisə resurslarının idarə edilməsi sistemi") uğurla tətbiq edilmişdir. DMAA bütün kadr və maliyyə - mühasibatlıq işi yeni sistemin tətbiq olunmasından sonra avtomatlaşmış bazada qurulmuş və tam elektron formaya keçirilmişdir.

Sistemin tətbiqi ilə Kadr və Mühasibat uçotu işinin teşkili və idarə edilməsi də operativləşmiş, sənədlər üzrə informasiyaların sistemə daxil edilməsi, həmçinin müxtəlif hesabat formalarının əldə edilməsi, uçotun tam dəqiqliklə apanlması təmin edilmş, bununla da vaxt itkisinin qarşısı da kifayət qədər alınmışdır.

Tətbiq olunan yeni sistem Azərbaycan Respublikasının əmək və Vergi Məcəlləsinə, Milli Hesablar Planına uyğun qurulmuşdur. Sistemin üstün cəhətlərindən biri də hesablar planında və qanunvericilikdəki dəyişikliklərin və ya yeniliklərin sistemdə operativ şəkildə əks etdirilməsidir.

Bu işin təşkilinə görə SİNAM şirkətinin rəhbərliyinə minnətdarlığımızı bildiririk və sistemdən istifadə edən təşkilat olaraq sizinlə işbirliyimizin uzunmüddətli olmasını arzu edirik.

Maliyyə iqtisadiyyat
şöbəsinin müdiri

Zahid Səttarov